**“İnformasiya məkanlarında informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik təhdidlərin qarşısının alınması ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nın 4.1.1-ci yarımbəndinin, “İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 411 nömrəli Qərarının 2-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “İnformasiya məkanlarında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması ilə bağlı Tədbirlər Planı” (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).
2. Tədbirlər Planı üzrə məsul icraçılara tapşırılsın ki:
   2.1. Tədbirlər Planında nəzərdə tutulmuş tapşırıqların tam və vaxtında icrasını təmin etsinlər;
   2.2. “İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 411 nömrəli Qərarından irəli gələn digər zəruri tədbirlər görsünlər.
3. “İnformasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması məqsədilə tədbirlərin görülməsi haqqında” Azərbaycan Respublikası energetika nazirinin 2026-cı il 28 yanvar tarixli 3-15/3-2-42/2026 nömrəli Əmrinin 1-ci hissəsi ilə yaradılmış İşçi qrupu Azərbaycan Respublikasının Energetika Nazirliyində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə aparılacaq auditin nəticələrinə əsasən mövcud çatışmazlıqların aradan qaldırılması ilə bağlı müfəssəl tədbirlər planının layihəsini hazırlayıb energetika nazirinə təqdim etsin.
4. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin Aparatının bütün struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası energetika nazirinin
5 fevral 2026-cı il tarixli 3-15/3-2-59/2026 nömrəli Əmri ilə
təsdiq edilmişdir.

**İnformasiya məkanlarında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması ilə bağlı Tədbirlər Planı**

| | Tədbirin adı | Əsas icraçı | Müştərək icraçılar | İcra müddəti |
|---|---|---|---|---|
| **1.** | Energetika Nazirliyində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə auditin aparılmasının təşkili | İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi | Maliyyə şöbəsi, Təminat şöbəsi | 29.05.2026 |
| **2.** | Energetika Nazirliyində mövcud olan informasiya daşıyıcıları, eyni zamanda, informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə mövcud təhdidlər, baş vermiş insidentlər barədə məlumatların toplanması, təhlili və sistemləşdirilməsi | İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi | Aparatın bütün struktur bölmələri, EMTA, BOEMDA | 31.03.2026 |
| **3.** | İnformasiya təhlükəsizliyi riskləri reyestrinin formalaşdırılması və aparılması üçün kadr, təlim ehtiyacları, texniki və maliyyə resursları barədə təkliflərin hazırlanması | İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi | Maliyyə şöbəsi, Təminat şöbəsi, Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsi | 20.02.2026 |
| **4.** | İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair qüvvədə olan normativ hüquqi aktların Nazirlik tərəfindən icra səviyyəsinin təhlili və təsnifatlaşdırılması, zəruri olduğu halda digər tədbirlərin görülməsi | Hüquq şöbəsi, İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi | EMTA, BOEMDA | 06.03.2026 |
| **5.** | "İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 411 nömrəli Qərarı əsasında informasiya riskləri reyestrinin formalaşdırılması | İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi | EMTA, BOEMDA | 19.06.2026 |